F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# FOLKLOR

## Uşaq ədəbiyyatının qaynağı və Ana dilinin daşıyıcısı



*(Veblioqrafiya)*

**Bakı – 2025**

© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025.

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**

**Ağayeva İranə**

**Ünvan:** **Bakı şəhəri, S.Vurğun küçəsi 88**

**Əlaqə:** **(+99412) 597-08-79, (+99412) 597-09-86**

**info@clb.az**

**ushaqkitabxanasi@gmail.com**

**childlibbaku@yahoo.com**

## Giriş

Azərbaycan xalqının zəngin mədəni irsinin əsas sütunlarından biri olan folklor yalnız keçmişin yadigarı deyil, həm də gələcək nəsillərə istiqamət verən mənəvi xəzinədir. Xüsusilə uşaqlar üçün folklor həm ədəbiyyatla ilk tanışlığın başlanğıcı, həm də ana dilinin öyrənilməsi və sevdirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Folklor nümunələri uşaq ədəbiyyatının əsas qaynağı olmaqla yanaşı, dilin canlı şəkildə qorunmasında və ötürülməsində mühüm vasitə rolunu oynayır. Nağıllar, bayatılar, laylalar, tapmacalar və şifahi oyunlar uşaqların dünyasında ən uyğun ədəbi formalar sırasındadır. Bu janrlar uşağın dünyanı dərk etməsində, təxəyyülünün formalaşmasında və mənəvi inkişafında mühüm rol oynayır. Folklor vasitəsilə uşaqlar sadə, anlaşılan, lakin dərin məzmunlu mətnlərlə qarşılaşır, qəhrəmanlıq, dürüstlük, zəhmətkeşlik, xeyirxahlıq kimi dəyərləri öyrənirlər.

Folklorun ən mühüm funksiyalarından biri də ana dilinin qorunması və yeni nəslə ötürülməsidir. Tapmacalar və yanıltmaclar qafiyəli və ritmik strukturları ilə uşaqların dil bacarıqlarını inkişaf etdirir. Laylalar isə yalnız körpəni sakitləşdirmək funksiyası daşımır, həm də ana dili ilə ilk ünsiyyətin körpü rolunu oynayır. Ana laylası ilə böyüyən uşaq dili sevərək öyrənir, sözlərin melodikliyini və ifadə imkanlarını erkən yaşdan qavramağa başlayır.

Ənənəvi folklor nümunələri yazılı uşaq ədəbiyyatının formalaşmasında əsas mənbə olmuşdur. Müasir uşaq yazıçıları xalq ədəbiyyatından ilham alaraq uşaqlar üçün yeni, maraqlı əsərlər yaradırlar. Bu əsərlər bir tərəfdən folklorun yeni nəslə çatdırılmasını təmin edir, digər tərəfdən isə uşaqlarda oxuma vərdişi formalaşdırır. Xalq dastanlarındakı obrazlar, nağıllardakı süjetlər uşaq kitablarında yenidən canlanaraq yeni məna qazanır.

Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrinin kütləvi şəkildə toplanmasının başlıca mərhələsi 1900-1920-ci illər arasında olmuşdur. Görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli folklorşünaslığımızın tarixinə Azərbaycan folklorşünaslığının yaradıcısı kimi daxil olmuşdur. O, xalq ədəbiyyatını yazılı ədəbiyyatla bərabər dəyərləndirmiş və folkloru milli mədəniyyətin təməl sütunlarından biri kimi təqdim etmişdir. Firidun bəy Köçərli "Balalara hədiyyə" kitabında müxtəlif xalq nağıllarını, bayatıları, atalar sözlərini, əfsanə və rəvayətləri toplayaraq onların sistemləşdirilməsi və gələcək nəsillərə çatdırılması işinə rəhbərlik etmişdir. 1911-ci ildə Tiflisdə nəşr olunan bu kitab Azərbaycan dilində uşaqlar üçün hazırlanmış ilk folklor nümunələri toplusu kimi tarixə düşmüşdür. Bu fəaliyyət folklorun elmi əsaslarla öyrənilməsinə yol açmışdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası çap məhsullarında folklor nümunələrinin tammətnli siyahısını hazırlayaraq oxuculara təqdim edir.

# Kitablarda




555 tapmaca. - Bakı : Qanun; Əli və Nino nəşriyyatı, 2016. - 96 s.

Uşaqlarda kiçik yaşlardan təfəkkür qabiliyyətinin formalaşmasında tapmacaların rolu əvəzsizdir. “555 tapmaca” kitabı geniş oxucu kütləsi – azyaşlı uşaqlar və yeniyetmələr, həmçinin müəllim və tərbiyəçilər üçün nəzərdə tutulub.Bu kitabda toplanan tapmacalar konkret hadisə və predmeti əks etdirən, konkret cavabları olan və asanlıqla tapılan seçmə nümunələrdir. Bəzi tapmacalara hətta azyaşlı uşaqlar da cavab tapa bilərlər.

Ağ atlı oğlan : Sehirli nağıllar. - Bakı : Altun kitab, 2005. - 96 s.




Bu kitabda "Azərbaycan nağılları" nəşr seriyasından olan bir neçə maraqlı nağıl – “Üç şahzadə”, “Ağıllı qız”, “Keçəllə qazının nağılı” və b. nəşr olunmuşdur.




Ağ göyərçin : Azərbaycan nağılı = The white dove : An Azerbaijani fairy tale. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2002. - 16 s.

Keçmiş zamanlarda gündoğanda Səxavət, günbatanda Ədalət adlı iki qüdrətli şah yaşayırdı. Amma onlar bir-birini düşmən sayırdılar. Onların necə barışdığını bilmək istəsən bu nağılı oxu!

Ağac - hər dərdə əlac. - Bakı : Altun Kitab, 2013. - 12 s.




Kitabda kirpi və dovşanın qısa yol əhvalatından bəhs edilir. Kirpinin necə xeyirxah və mərhəmətli olduğu uşaqların nəzərinə çatdırılır.




Axmaq canavar. - Bakı : Altun Kitab, 2008. - 11 s.

Nağıl axmaq canavarın başına gələn əhvalatdan danışır. Quzu, qoyun, at və camış onları yemək istəyən canavarı hiyləylə aldadıb canlarını qurtarırlar.




Aslan və dovşan. - Bakı : [s. n.], 1969. - 10 s. – kiril əlifbası ilə.

Nağıl heyvanların aslana qurduğu tələdən bəhs edir.




Atalar sözü və məsəllər. - Bakı : Altun Kitab, 2005. - 96 s.

Kitabda atalar sözü və məsəllər toplanmış, el arasında işlədilən məsəllərin mənaları açıqlanmışdır.




Azərbaycan bayatıları : poeziya. - Təkrar nəşr. - Bakı : XXI-Yeni Nəşrlər Evi, 2004. - 304 s.

Oxuculara dəyərli töhfə olan bu kitaba bayatı janrının uzaq keçmişimizdən bəri yaradılan nümunələri daxil edilmişdir.




Azərbaycan dastanları : 5 cilddə. C. 1. - Təkrar nəşr, 1965-ci il nəşri əsasında. - Bakı : Lider nəşriyyatı, 2005. - 392 s.

Bu cildə "Qurbani", "Tahir və Zöhrə", Dədə Qorqud dünyası ilə çox yaxından səsləşən "Novruz", ailə-məişət mövzulu "Alı xan", eləcə də qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçid təsiri bağışlayan "Lətif şah", "Şahzadə Əbülfəz" kimi çox sevilən, xalqın duyğu və düşüncələrini, istək və arzularını bütün əlvan çalarlarıyla tərənnüm edən dastanlar daxil edilmişdir.




Azərbaycan dastanları : 5 cilddə. C. 2. - Təkrar nəşr, 1965-ci il nəşri əsasında. - Bakı : Lider nəşriyyatı, 2005. - 448 s.

Azərbaycan xalq dastanları içərisində eləlləri var ki, qəhrəmanlıqla məhəbbətin birləşdirilməsi, uzlaşdırılması yolu ilə yaradılmışdır. Təqdim olunan cildə daxil edilmiş, xalq içərisində sevilib geniş yayılan "Əsli və Kərəm", "Abbas və Gülgəz", "Seydi və Pəri", "Məhəmməd və Güləndəm", "Leyli və Məcnun" və s. dastanlar bu qəbildəndir.




Azərbaycan dastanları : 5 cilddə. C. 3. - Təkrar nəşr, 1967-ci il nəşri əsasında. - Bakı : Lider nəşriyyatı, 2005. - 328 s.

Azərbaycan xalq dastanlarının bu cildində əsrlərin sınağından çıxaraq xalqımızın mənəvi aləminin, bədii təfəkkürünün, estetik zövqünün zənginləşməsində müstəsna rol oynamış, mövzuca rəngarəng dastan nümunələri toplanmışdır. Bunlara misal olaraq "Aşıq Qərib", "Əmrah", "Şah İsmayıl", "Səlim şah", "İrvahım" və b. göstərmək olar.




Azərbaycan dastanları : 5 cilddə. C. 5. - Təkrar nəşr, 1972 və 1993-cü il nəşrləri əsasında. - Bakı : Lider nəşriyyatı, 2005. - 344 s.

Bu kitabda “Dilsuz və Xəzangül”, “Şahzadə Bəhrəm”, “Fərhad və Şirin” və başqa dastanlar yer almışdır.




[Azərbaycan əfsanələri. - Bakı : Xəzər, 2009. - 96 s.]

Kitabda dağ əfsanələri, qədim qala əfsanələri, bulaq və göl əfsanələri, çiçək və gül əfsanələri, quş əfsanələri, maral və ceyran əfsanələri və müxtəlif mövzulu əfsanələr toplanmışdır.




[Azərbaycan Folkloru Antologiyası. 10-cu kitab : İrəvan çuxuru folkloru. - Bakı : Sәda, 2004. - 472 s.]

Azərbaycan AMEA Folklor İnstitutunun "Azərbaycan Folkloru Antologiyası" silsiləsindən bu cilddə Azərbaycanın qədim vilayətlərindən olan İrəvan çuxurunun zəngin və təkrarsız folklor inciləri toplanmışdır.




[Azərbaycan Folkloru Antologiyası. 13-cü kitab : Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru. - Bakı : Səda, 2005. - 546 s.]

Azərbaycan Respublikası AMEA Folklor İnstitutunun "Azərbaycan Folkloru Antologiyası" silsiləsindən nəşr etdiyi bu cilddə Azərbaycanın folklor materialları ilə zəngin olan Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən bölgələrinin folklor inciləri toplanmışdır.




[Azərbaycan Folkloru Antologiyası. 15-ci kitab : Dərələyəz folkloru. - Bakı : Səda, 2006. - 484 s.]

Çoxcildliyin Qərbi Azərbaycanın Dərələyəz mahalını əhatə edən bu cildində folklorumuzun indiyə qədər toplanıb nəşr edilməmiş bir çox orijinal nümunələri öz əksini tapmışdır.




[Azərbaycan Folkloru Antologiyası. 16-cı kitab : Ağdaş folkloru. - Bakı : Səda, 2006. - 496 s.]

Azərbaycan AMEA Folklor İnstitutunun "Azərbaycan Folkloru Antologiyası" silsiləsindən nəşr etdiyi bu cilddə Ağdaş rayonu ərazisindən toplanmış folklor nümunələri verilmişdir.




[Azərbaycan Folkloru Antologiyası. 17-ci kitab : Muğan folkloru. - Bakı : Nurlan, 2008. - 448 s.]

Azərbaycan AMEA Folklor İnstitutunun "Azərbaycan Folkloru Antologiyası" silsiləsindən nəşr etdiyi bu cilddə Muğan ərazisindən toplanmış folklor nümunələri verilmişdir.




[Azərbaycan Folkloru Antologiyası. 6-cı kitab : 2 cilddə. C. 2. : Şəki folkloru. – Bakı : Səda, 2002. – 556 s.]

Azərbaycan AMEA Folklor İnstitutunun "Azərbaycan Folkloru Antologiyası" silsiləsindən nəşr etdiyi bu cilddə Şəki ərazisindən toplanmış folklor nümunələri verilmişdir.




[Azərbaycan Folkloru Antologiyası. 7-ci kitab : Qaraqoyunlu folkloru. - Bakı : Səda, 2002. - 464 s.]

"Azərbaycan Folkloru Antologiyası" silsiləsindən nəşr edilən bu cilddə Azərbaycanın əzəli, əbədi torpaqlarından olan Qaraqoyunlu mahalının zəngin və təkrarsız folklor inciləri toplanmışdır.




[Azərbaycan Folkloru Antologiyası. 9-cu kitab : Gəncəbasar folkloru. - Bakı : Səda, 2004. - 522 s.]

Azərbaycan AMEA Folklor İnstitutunun "Azərbaycan Folkloru Antologiyası" silsiləsindən nəşr etdiyi bu cilddə Azərbaycanın əzəli, əbədi torpaqlarından olan Gəncəbasarın zəngin və təkrarsız folklor inciləri toplanmışdır.

Azərbaycan folkloru külliyatı. C. 2. : Nağıllar : 2-ci kitab. - Bakı : Səda, 2006. - 400 s.

Azərbaycan nağıllarının 2-ci kitabı kimi geniş oxucu kütləsinə təqdim olunan bu nəşrdə nağıllarımızın kamil örnəkləri toplanmışdır.







Azərbaycan folkloru külliyatı. C. 3. : Nağıllar : 3-cü kitab. - Bakı : Səda, 2006. - 400 s.

Azərbaycan nağıllarının 3-cü kitabı kimi geniş oxucu kütləsinə təqdim olunan bu nəşrdə nağıllarımızın kamil örnəkləri toplanmışdır.

Azərbaycan folkloru külliyatı. C. 4. : Nağıllar : 4-cü kitab. - Bakı : Nurlan, 2007. - 400 s.

Azərbaycan nağıllarının 4-cü kitabı kimi geniş oxucu kütləsinə təqdim olunan bu nəşrdə nağıllarımızın kamil örnəkləri toplanmışdır.






Azərbaycan folkloru külliyatı. C. 5. : Nağıllar : 5-ci kitab. - Bakı : Nurlan, 2007. - 400 s.

Azərbaycan nağıllarının 5-ci kitabı kimi geniş oxucu kütləsinə təqdim olunan bu nəşrdə nağıllarımızın kamil örnəkləri toplanmışdır.

Azərbaycan Xalq Ədəbiyyatından seçmələr : Qaravəllilər, oyunlar və xalq tamaşaları. - Bakı : Şərq-Qərb, 2005. - 312 s.

Kitabda mərasimlər və ayinlər içərisində yaranıb yayılan, öz məzmun, şəkil və hətta mənalarını dəyişərək zəmanəmizə qədər gəlib çıxan qədim və son dərəcə zəngin xalq sənəti nümunələrindən qaravəllilər, oyunlar və xalq tamaşaları toplanmışdır.







Azərbaycan nağılları : 2 cilddə. C. 2. - Bakı : Azərnəşr, 1970. - 328 s. – kiril əlifbası ilə.

Bu kitabda Azərbaycan folklor nümunəsi olan "Şahzadə Feruzun nağılı", "Son peşmançılıq fayda verməz", "Şəhənduzun nağılı", "Şah Abbasla bayquş", "Padşah və bənna", "Məlik Cəmilin hekayəsi" kimi ibratəmiz nağıllar verilmişdir.




Azərbaycan nağılları : 5 cilddə. C. 1. - Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2005. - 360 s.

Beş cildlik "Azərbaycan nağıllları"nın təqdim olunan I cildinin əsasında milli folklorun toplanması, nəşri və araşdırılmasında böyük xidməti olan Hənəfi Zeynallının "Azərbaycan nağıllları" toplusu dayanır. Hələ 1936-cı ildə nəşrə hazırlanmış həmin toplum bu gün də el arasında geniş yayılan nağıllarımızın böyük qismini əhatə edir.Topluda yer alan, milli koloritlə zəngin nağılllar vaxtilə Azərbaycanın dəyişik bölgələrindən yazıya alınmışdır.




[Azərbaycan nağılları : 5 clldə. C. 3.  - Təkrar nəşr, 1961-ci il nəşri əsasında. - Bakı : Şərq-Qərb, 2005. - 296 s.]

"Azərbaycan nağılları"nın III cildində toplanmış nağıllarda da bütün başqa nağıllarımızda olan misilsiz bir keyfiyyət var: real aləm ilə xəyal aləminin vəhdəti və bu vəhdətə inam. Dünyaya və insana heyrət! Bu nağılların da qəhrəmanı tez böyüyür, tez kamala çatır. Onların qüdrəti sonsuzdur; arzuedilən - bütünlüklə gerçəyə çevrilir. Təbiətin ən möhtəşəm qüdrəti nağıl qəhrəmanının əzəmət və gözəlliyinə səcdə qılır.




[Azərbaycan nağılları : 5 cilddə. C. 4. - Təkrar nəşr, 1962 və 1964-cü il nəşrləri əsasında. - Bakı : Şərq-Qərb, 2005. - 336 s.]

"Azərbaycan nağılları"nın bu cildində yer alan nümunələr janrın bütün əlvanlığını özündə toplayır. Onlar da fantaziya zənginliyi, ardıcıllıq, məntiqillik və təcrübə aparmaq vərdişi aşılayır, oxucusunu gördüyünün əsiri olmaqdan qurtarır. Bir həqiqətdir ki, məlum qanunlar çərçivəsinə sığmayan, gözlənilməz yenilik nağılla tərbiyə olunmamış beyinlərin narahatlığına səbəb olur.




[Azərbaycan nağılları : 5 cilddə. C. 5. - Təkrar nəşr, 1963-cü il nəşri əsasında. - Bakı : Şərq-Qərb, 2005. - 304 s.]

Bu cilddə oxuculara təqdim olunan nağıllar Gəncəbasardan ifa zamanı yazıya alınıb toplanmışdır. Cildə daxil edilmiş "Moltanı padşahı", "Uşax pəhlivan", "Yusiflə Sənubər", "Padşah və dəmirçi" ilə yanaşı "Ovçu Pirim", "Göyçək Fatma", " Loğman", "Kəsik baş", "İskəndər Zülqərneyn" və bu kimi bəzən bir, bəzən də bir neçə dəfə nəşr edilmiş süjetlərin yeni, maraqlı variantlarıdır.




[Azəri nağılları : 2 cilddə. C. 1.  - Bakı : Azərnəşr, 1967. - 276 s. – kiril əlifbası ilə.]

Bu kitabda Azərbaycan folklor nümunəsi olan "Kürd Hüseynin nağılı", "Şahzadə və Məleykə xatun", "Məlik Cümşüdüm nağılı", "İncilər saçır, güllər açır", "Şah Abbas və üç bacı", "İsgəndərin qaranlıq dünyaya getməsi" kimi ibratəmiz nağıllar verilmişdir.




[Bayatılar // Qızıl qönçələr. - Bakı : Tumurcuq, 2002. – S. 6.]

Kitabda məktəb yaşlı uşaqlar üçün nağıl, hekayə, yanıltmac, bayatı, oyunlar verilmişdir.

[Bəhlul Danəndə lətifələri. - Bakı : Altun Kitab, 2013. - 112 s.]




Bəhlul Danəndə lətifələri Yaxın Şərqdə, o cümlədən Azərbaycanda geniş yayılmışdır. Bəhlul Danəndə acgözlüyə,tamahkarlığa, fırıldaqçılığa, ədalətsizliyə qarşı özünəməxsus tərzdə mübarizə aparmışdır. Bəhlul aldadılmış, təhqir edilmiş, yazıq, yoxsul insanlara kömək etmiş, onları bəzən ölümdən belə qurtarmış, müdrik hərəkətləri ilə haqq və ədalətin bərpasına çalışmışdır.




[Bostançı və Şah Abbas : nağıl. - Bakı : Altun kitab, 2005. - 96 s.]

Kitabda "Həsən Qara", "Bostançı və şah Abbas", "Naxırçı oğlu Eyvaz", "Loğman", "Şahzadə və qurbağa" nağılları vardır. Nağılların dili uşaqlar üçün yenidən işlənmişdir.

[Bulud : Azərbaycan xalq nağılı. - Bakı : Gənclik, 1983. - 16 s. – kiril əlifbası ilə.]




Nağıl şah dövrünün maraqlı əhvalatından bəhs edir.




[Cırtdan : nağıl. - Bakı : Turan Nəşrlər Evi, 2001. - 10 s.]

Uşaqlara təqdim olunan bu nağıl öz ağlı və fərasəti ilə yoldaşlarını və özünü divdən xilas edən Cırtdan haqqındadır.

[Dastani-Əhməd Hərami : poeziya. - Təkrar nəşr, 1978-ci il nəşri əsasında. - Bakı : Şərq-Qərb, 2004. - 120 s.]




XIII əsr Azərbaycan poeziyasının ən gözəl nümunələri sırasına daxil olan "Dastani-Əhməd Hərami" doğma dilimizdə qələmə alınmış ilk məsnəvidir. Müəllifi bəlli olmayan bu əsər əruz vəznində, sadə və aydın dildə yazılmışdır.




[Daşdəmir. - Bakı : Altun kitab, 2005. - 96 s.]

Kitabda maraqlı məişət nağılları toplanmışdır.




[Deyək, gülək, düşünək. - Bakı : Təhsil, 2009. - 24 s.]

Kitabda Bəhlul Danəndə və Molla Nəsrəddinin adı ilə bağlı məzəli lətifələr, ibratəmiz təmsillər, insanı düşündürən tapmacalar toplanmışdır.




Dədə Qorqud dastanları. Dəli Domrulun dastanı : kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün. - Bakı : CBS Polygraphic production, 2001. - 15 s.

Kitabda kiçik yaşlı uşaqlar üçün çox maraqlı "Dəli Domrulun dastanı" verilmişdir.

Dədə Qorqud dastanları. Salur Qazanın dastanı : kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün. - Bakı : CBS Polygraphic production, 2001. - 15 s.

Kitabda kiçik yaşlı uşaqlar üçün çox maraqlı "Dəli Domrulun dastanı" verilmişdir.







Dədə Qorqud dastanları. Uruzun dastanı : kiçik yaşlı və ibtidai sinif şagirdləri üçün. - Bakı : CBS Polygraphic production, 2001. - 15 s.

Kitabda dərc olunan Dədə Qorqud dastanları silsiləsindən olan Uruzun dastanı kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuşdur.

Dədə Qorqud dastanları. Yeynək boyu. - Bakı : CBS Polygraphic production, 2001. - 12 s.

Kitabda dərc olunan Dədə Qorqud dastanları silsiləsindən olan Yeynək boyu kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuşdur.






[Dədə Qorqud dastanları: Basat və Təpəgöz boyu : 8-ci boy. - Bakı : Hədəf Nəşrləri, 2013. - 15 s.]

Kitabda dərc olunan Dədə Qorqud dastanları silsiləsindən olan Basat və Təpəgöz boyu kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuşdur.




[Dədə Qorqud dastanları: Bəkil oğlu İmran boyu : 9-cu boy. - Bakı : Hədəf Nəşrləri, 2013. - 15 s.]

Kitabda dərc olunan Dədə Qorqud dastanları silsiləsindən olan Bəkil oğlu İmran boyu kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuşdur.




[Dədə Qorqud dastanları: Buğac boyu : 1-ci boy. - Bakı : Hədəf Nəşrləri, 2013. - 15 s.]

Kitabda dərc olunan Dədə Qorqud dastanları silsiləsindən olan Buğac boyu kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuşdur.




[Dədə Qorqud dastanları: Qanturalı boyu : 6-cı boy. - Bakı : Hədəf Nəşrləri, 2013. - 15 s.]

Kitabda dərc olunan Dədə Qorqud dastanları silsiləsindən olan Qanturalı boyu kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuşdur.




[Dədə Qorqud dastanları: Uşun oğlu Seyrək boyu : 10-cu boy. - Bakı : Hədəf Nəşrləri, 2013. - 15 s.]

Kitabda dərc olunan Dədə Qorqud dastanları silsiləsindən olan Uşun oğlu Seyrək boyu kiçik yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulmuşdur.




[Dostlar səfərdə : nağıl. - Bakı : Altun Kitab, 2008; 2013. - 11 s.]

Bu kitab azyaşlı uşaqlar üçün nəzərdə tutulmuş maraqlı nağıldır. Nağılda tülkü, qaban, qunduz kimi obrazlar yer almışdır.




[El çələngi. - Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2004. - 241 s.]

Bu kitab Azərbaycan xalq şeirinin seçmə incilərini - vəsfi-hal, oxşama, bayatı, xalq mahnıları, qəhrəmanlıq nəğmələri, aşıq şeiri kimi yetkin əsərlərini özündə toplamışdır.




[El düzgüləri, elat söyləmələri. - Bakı : Azərnəşr, 1993. - 276 s. - kiril əlifbası ilə.]

Əvəzsiz milli sərvətimiz olan folklorumuzun indiyə qədər nəşr olunmamış incilərindən bir qismini əhatə edən bu toplu uzunmüddətli axtarışların nəticəsi kimi ortaya çıxıb. Toplu xalqımızın milli-mənəvi özünəməxsusluğunun öyrənilməsi üçün dəyərli qaynaqlarla zəngindir.




**Əliyev R.** Azərbaycan şifahi xalq ədəbiyyatı. – Bakı, 2014. – 350 s.

Müəllif bu kitabda inanclar, andlar, alqış və qarğışlar, əfsunlar, fallar, türkəçarələr və yuxularla bağlı folklorşünaslıqda mövcud olan mübahisə və mülahizələri ümumiləşdirib öz orijinal qənaətlərini irəli sürmüşdür.

Əsatirlər, əfsanə və rəvayətlər. - Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2005. - 304 s.




Kitaba respublikanın dəyişik bölgələrindən toplanmış folklor mətnləri daxil edilmişdir. Mətnlər elmi təsnifata uyğun bölgülərlə təqdim olunmuşdur. Milli mifoloji sistemin özəllikləri, mövzu dairəsi nəzərə alınaraq bir sıra mətnlər ayrı-ayrı başlıqlar altında qruplaşdırılmışdır.




Gədəbəy folklor örnəkləri. C. 1. : Bakı : Elm və təhsil, 2016. – 360 s.

Kitabda Gədəbəyin folklor nümunələrini əhatə edən bir çox nümunələr öz əksini tapmışdır.

Göyçək Fatma : Azərbaycan xalq nağılı. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1996. - 16 s.




Bu nağılda Göyçək Fatmanın başına gələn hadisələrdən danışılır.




[Göyər, səmənim, göyər. - Bakı : Xəzər, 2009. - 160 s.]

Bu kitabdakı nümunələr bütövlükdə xalq yaradıcılığımızın mühüm sahələri ilə ətraflı tanış olmaq imkanını genişləndirir. Eyni zamanda kitab bütün dövrlərdə mənəvi mədəniyyətimizin, eləcə də bu mədəniyyətin tərkib hissələrində olan yazılı ədəbiyyatımızın hansı qaynaqlara söykənərək inkişaf edib formalaşması barədə müfəssəl təsəvvür yaradır.

[Xoruz tülkünü aldatdı : SSRİ xalqları nağılları. - Bakı : Gənclik, 1969. - 64 s. – kiril əlifbası ilə.]




Kitabda xoruzla tülkünün macəralarından danışılır.



[Xoruz. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1951. - 7 s. – kiril əlifbası ilə.]




[Kitabi-Dədə Qorqud : Əsil və sadələşdirilmiş mətnlər. – Bakı : Öndər, 2004. – 376 s.]

"Kıtabi-Dədə Qorqud" dilimizin, ədəbiyyatımızın, dastan yaradıcılığımızın, ümumiyyətlə mədəniyyətimizin tarixini öyrənməkdə böyük əhəmiyyətə malikdir. Bu nəşrdə Dədə Qorqud iki variantda-orijinala tam uyğun və müasirləşdirilmiş şəkildə verilir.




**Köçərli, F**. Balalara hədiyyə. - Bakı : Şərq-Qərb, 2013. - 172 s.

1912-ci ildə çap olunan "Balalara hədiyyə" kitabında müəllif Azərbaycan folkloruna aid topladığı materialları oxuculara çatdırmışdır. Kitabda uşaqların çox sevdiyi "Göyçək Fatmanın nağılı", "Pıspısa xanım və Siçan bəy" kimi məşhur xalq nağılları, sayaçı sözlər və düzgülər yer almışdır. Kitab "Gənclik" nəşriyyatının 1967-ci il və 1987-ci il nəşrləri əsasında hazırlanmışdır.




Qaçaq Nəbi : Dastan. - Bakı : Azərbaycan dövlət nəşriyyatı, 1961. - 372 s. – kiril əlifbası ilə.

Azərbaycanın məşhur xalq qəhrəmanı Qaçaq Nəbinin həyat və mübarizəsinə həsr olunmuş tarixi-bədii əsərdir. Kitabda Nəbinin haqsızlığa qarşı çıxaraq dağlara çəkilməsi, xalqın mənafeyini qoruması və zalım bəy-hakimlərlə mübarizəsi təsvir olunur. Əsər həm qəhrəmanlıq, həm də azadlıq ruhunu oxucuya aşılayır.




Qaçdı tutdu : Oyunlarımız // Qızıl qönçələr. - Bakı : Tumurcuq, 2002. – S. 6.

Kitabda məktəb yaşlı uşaqlar üçün nağıl, hekayə, yanıltmac, bayatı, oyunlar verilmişdir.




Qara kəl asta gedər. Nənəm a şişək qoyun : Holavarlar, sayaçı sözləri. Azyaşlı uşaqlar üçün. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1996. - 24 s.

Azyaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu kitabda el arasında geniş yayılmış, balacalar üçün anlaşıqlı olan holavarlar və sayaçı sözlər toplanmışdır.




[Qarabağ lətifələri. - Bakı : [s. n.], 2018. - 12 s.]

Kitabda Qarabağ bölgəsinə məxsus yumor, hazırcavablıq və xalq müdrikliyi əks olunmuşdur. Bu lətifələr həm güldürür, həm də düşündürərək oxucuya xalqın dünyagörüşünü və məişətini çatdırır.




Qarı nənə və övladları : Əfsanələr, əsatirlər, uşaq oyunları, mərasim nəğmələri. - Bakı : Gənclik, 1986. - 80 s. – kiril əlifbası ilə.

Kitabda müxtəlif oyunlar, əfsanələr, əhvalatlar yer almışdır.



Qarışqa və göyərçin : nağıl. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1959. - 11 s. – kiril əlifbası ilə.

Nağılda qarışqa və göyərçinin möhkəm dostluğundan bəhs edilir. Bir gün suda boğulan qarışqanı göyərçin xilas edir. Həmin gündən onların dostluğu başlayır. Bir gün ovçu göyərçini tutur və qarışqa onu xilas edir. Beləcə onlar hər zaman dostluqlarına davam edirlər.




Laylalar // Qızıl qönçələr. - Bakı : Tumurcuq, 2002. – S. 5.

Kitabda məktəb yaşlı uşaqlar üçün nağıl, hekayə, yanıltmac, bayatı, oyunlar verilmişdir.




Lətifələr. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1996. - 16 s.

Azyaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu kitabçada maraqlı lətifələr toplanmışdır.




Məlikməmməd : nağıl. - Bakı : Maqnat, 2000. - 26 s.

Bu kitabda xalq arasında simvolik xarakter olan div, nağıl qəhrəmanıyla onun arasındakı mübarizəsi tərənnüm olunur.




Mərdlə namərdin nağılı : Azərbaycan xalq nağılı. - Bakı : Nərgiz, 2013. - 16 s.

Bu nağılda xaraktercə bir-birindən fərqli iki yoldaş olan Mərd və Namərddən bəhs olunur. Namərd Mərdə xəyanət edir. Lakin Mərd haqsızlığa uğrasa da nağılın sonunda o öz haqqını alır.




Molla Nəsrəddin : lətifələr. - Bakı : Beşik, 2008. - 24 s.

Kitabda Molla Nəsrəddinin geniş oxucu kütləsi tərəfindən sevilən lətifələri toplanmışdır.




Molla Nəsrəddin lətifələri : Yumor, satira. - Bakı : Altun kitab, 2005. - 112 s.

Molla Nəsrəddin lətifələrində hakimlərin ədalətsizliyi, ikiüzlülük, yaltaqlıq, acgözlük, nadanlıq kimi xüsusiyyətlər incə yumorla məsxərəyə qoyulur.

Molla Nəsrəddin lətifələri. - Bakı : Öndər, 2004. - 304 s.

Bu kitabda Molla Nəsirəddinin seçilmiş lətifələri toplanmışdır. Lətifələrdə dövrün haqsızlıqları, yalançı din xadimləri, dövlət adamlarının riyakarlığı tənqid atəşinə tutulmuşdur.







Nənələrdən, babalardan oyunlar. - Bakı : Ulu, 2002. - 20 s.

"Nənələrdən, babalardan" seriyasından olan "Oyunlar" kitabında keçmiş zamanlardan dövrümüzə qədər gəlib çatmış oyunlar daxil edilmişdir.

Nənələrdən, babalardan qaravəllilər. - Bakı : Ulu, 2002. - 32 s.

Kitaba el arasında maraqla söylənilən əhvalatlar daxil edilmişdir.






Nənələrdən, babalardan uşaq nəğmələri. - Bakı : Ulu, 2002. - 32 s.

Bu kitabda balaca oxucularımız şifahi xalq ədəbiyyatında toplanmış uşaq nəğmələrilə, yanıltmaclarla, sanamalarla, acıtmalarla tanış olacaqlar.

Padşahla pinəçinin nağılı : nağıl. - Bakı : Turan Nəşrlər Evi, 2001. - 12 s.

Kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu kitaba "Padşahla pinəçinin nağılı" daxil edilmişdir.







Sehrli nağıllar. - Bakı : Altun Kitab, 2013/2019. - 127 s.

Kitabda şifahi xalq ədəbiyyatına daxil olan bir-birindən maraqlı sehrli nağıllar verilmişdir. Bu nağıllar uşaqlar tərəfindən sevilir və həvəslə oxunur.

Sehrli üzük. - Bakı : Maarif, 2006. - 86 s.

Bu kitabçada maraqlı nağıllar, rəvayətlər, tapmacalar, atalar sözləri və məsəllər, şeirlər, təmsillər, öcəşmələr, lətifələr və s. toplanmışdır.






Tapmacalar. - Bakı : Altun Kitab, 2005. - 112 s.

Kitabda müxtəlif mövzularda tapmacalar toplanmışdır.




Tapmacalar. - Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2004. - 208 s.

Bu kitabda məzmun baxımından rəngarəng olan, həyatın ən müxtəlif sahələri ilə bağlı tapmaca nümunələri toplanmışdır.




Tap-tapmaca. - Bakı : Altun Kitab, 2011. - 111 s.

Kitabçada şirin-şəkər balalar üçün tapmacalar toplanmışdır. Kitab uşaqların bu tapmacaları oxuması, tapması beyinlərinin inkişafı üçün öməmli səciyyə daşıyır.

Tarixi rəvayətlər. - Bakı : Altun kitab, 2005. - 96 s.

Kitabda dahi şəxsiyyətlər haqqında tarixi rəvayətlər toplanmışdır.






[Təpəgöz : nağıl. - Bakı : Xəzər, 2006. - 16 s.]

"Təpəgöz" xalqımızın əzəmətli dastanı "Kitabi-Dədə Qorqud"un motivləri əsasında yazılmış nağıldır. Aruz Qocanın itkin düşən oğlunun illər sonra təpəgöz kimi peyda olması və başına gələn maraqlı hadisələrdən bəhs edir.




[Tülkü və ilan. - Bakı : Gənclik, 1986. - 10 s. - kiril əlifbası ilə.]

Kitabda ilanın tülküyə xəyanət etməsindən və tülkünün ilanı bağışlamamasından söhbət gedir.




[Uşaq ədəbiyyatı : Azərbaycan Uşaq Ədəbiyyatı Antologiyası : 3 cilddə. C. 1. : Folklor və klassik uşaq poeziyası. – Bakı, ADPU nəşriyyatı, 2018. – S. 1-116.]

Kitabda tələbələrin seminar məşğələləri zamanı mütaliə edəcəkləri və kiçikyaşlı uşaqların maraq dairəsinə və qavrama səviyyəsinə uyğun olan görkəmli sənətkarların uşaq əsərlərindən poeziya nümunələri verilmişdir.




[Uşaq folkloru. - Bakı : Altun kitab, 2007. - 96 s.]

Kitabda Azərbaycan şifahi xalq ədəbiyyatının nümunələrindən olan uşaq folkloruna aid layla, sanama, oyun, alqış, dua, yanıltmaclar və s. toplanmışdır.




[Uşaq folkloru. - Bakı : KHATT, 2015. - 48 s.]

"Uşaq folkloru" kitabına Azərbaycan folklorunun müxtəlif janrlarından seçmələr daxil edilmişdir. Kitaba toplanan materiallar əsasən məktəbəqədər və məktəb yaşlı uşaqların xalq ədəbiyyatına maraqlarını artırmaq üçün dəyərli vəsaitdir.



[Vəfalı at : nağıl. - Bakı : Çaşıoğlu, 2008. - 16 s.]

Nağıl Məlik Məhəmməd, padşah, tutuquşu və padşahın gözəl qızının başına gələn maraqlı əhvalatdan bəhs edir. Azyaşlılar üçün nəzərdə tutulmuş maraqlı nağıldır.




[Yanıltmaclar // Qızıl qönçələr. - Bakı : Tumurcuq, 2002. – S. 5.]

Kitabda məktəb yaşlı uşaqlar üçün nağıl, hekayə, yanıltmac, bayatı, oyunlar verilmişdir.




[Yanıltmaclar. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1996. - 16 s.]

Uşaqlara təqdim edilən yanıltmaclar balaca oxucularımıza dilimizin şirinliyini, şəhdi-şəkərini və zənginliyini aşılamaqla yanaşı, onlara sözləri düzgün, səlis tələffüz etməyi öyrədir, fərasətli böyümələrinə kömək edir.




Yardımlı folklor örnəkləri. 1-ci kitab. : Bakı : Elm və təhsil, 2014. – 334 s.

Bu kitabda Yardımlı ərazisindən toplanmış folklor nümunələri verilmişdir.